# PLITONIT PLITOFLEX MONTAGE yüksək möhkəm fiksasiyalı montaj yapışqanı




280

- ✓ Ms polimer
- ✓ 350 kq / m2- ilkin yük
- ✓ 200% - ə qədər - yırtılmaya qədər uzanır
- ✓ 30 dəqiqə – ilkin bərkimə
- ✓ Daxili və xarici tətbiq üçün

PLITONIT Plitonit Deutsche Qualität

PEŞƏKAR OLMAQ ASANDIR

**Həm daxili, həm də xarici hər növ materialların yapışdırılması üçün uyğundur**

Təlimatları başqa dildə yükləmək üçün/
Download the manual in another language
kz | az | uz | tj | kg | tm | am | ge | mn

## Tətbiq sahəsi

Divar panelləri, plintuslar, eşiklər, suaxıdan borular, sanitar fitinqlər, güzgülər, kirəmitli plitə üzlük elementləri (gizli lyukların, ekranların, stolüstü səthlərin və s. montajı zamanı) kimi elementləri daxili və xarici işlərdə yapışdırma və montaj üçün istifadə olunur, həmçinin az məsuliyyətli konstruksiya və elementlərin montajında kimyəvi ankerə alternativ kimi istifadə oluna bilər (zəif mineral əsaslara yüngül mebel və texnikanın asma montajı üçün).

| Yapışqan əsasların növləri | Divarlar |
|---|---|
| Çini plitələr | + |
| Keramik plitələr | + |
| Təbii daş (sirkə turşusuna davamlı) | + |
| Süni daş | + |
| Şüşə (güzgülər də daxil olmaqla) | + |
| Plastik | + |
| Ağac / faner / DSP / OSB və s. | + |
| Metal (alüminium da daxil olmaqla) | + |
| Beton və digər mineral materiallar | + |
| Pleksiglas / polikarbonat | - |

* "İsti döşəmə" sistemi ilə birlikdə kafel döşəmə texnologiyası haqqında daha çox məlumat üçün plitonit.ru veb saytına daxil olun.

## Texniki xüsusiyyətlər

| | |
|---|---|
| Rəng | Ağ |
| Əsas | STP polimer |
| Minimum yapışdırıcı qat | 2-3 mm |
| Tətbiq zamanı temperatur | +5°C-dən +35°C-dək |
| İşləmə zamanı temperatur | -40°C-dən +90°C-dək |
| Sıxlıq | 1.58 ± 0.03 g / sm3 |
| Yırtılma zamanı uzanma | 200% |

## Əsas sahənin hazırlanması

| | |
|---|---|
| 1 | Yapışqanın tətbiq olunacağı sahə kirdən və tozdan təmizlənməlidir, boş qalan parçalar çıxarılmalı, yağdan təmizlənməlidir və qurudulmalıdır. |

## İşlərin yerinə yetirilməsi qaydası

| | |
|---|---|
| 1 | Kartricin ucunu kəsin və başlığı çəkin. |
| 2 | Başlığın ucunu nəzərdə tutulan tikişin ölçüsünə qədər kəsin (lakin diametri 3 mm-dən az olmamalıdır). |
| 3 | Kartrici paylayıcı tapançaya daxil edin. Məhsulun yüksək özlülük səviyyəsini tapança seçərkən nəzərə alın. |
| 4 | Sahələrdən birinə aralarında 10-15 sm məsafədə zolaqlar şəklində yapışqan tətbiq edin (havanın hərəkətini təmin etmək üçün) |
| 5 | Yapışdırılacaq səthləri bir-birinə möhkəm basın. |

Təzə tikiş şpatel ilə hamarlana bilər. Bərkiməmiş material həlledici ilə təmizlənə bilər, bərkimiş material isə yalnız mexaniki yolla təmizlənə bilər.

## İşlərin həyata keçirilməsi şərtləri

İşlərin həyata keçirilməsi zamanı və sonrakı 3 gün ərzində havanın, əsas sahənin və plitələrin temperaturu +5ºC ilə +30ºC arasında olmalıdır.

## Diqqət

Quraşdırılmış birləşmənin uzunömürlülüyü işlərin düzgün yerinə yetirilməsindən asılıdır. Bərkimə müddətində yapışqanla təmasdan çəkinin. Dondurulmuş səthlərə tətbiq etməyin. Bərkimə müddətində spirt və ya həllедicilərlə təmasdan çəkinin. Daimi suya batma ehtimalı olan hallarda istifadə etməyin. Məhsul suya (fasiləli təmaslar), alifatik həlledicilərə, mineral yağlara, sürtkü yağlara, seyreltilmiş üzvi turşulara və qələvilərə qarşı yüksək müqavimət göstərir. Aromatik həlledicilərə, konsentrat turşulara və xlorlu karbohidrogenlərə qarşı zəif müqavimət göstərir.

## Ehtiyat tədbirləri

**EHTİYATLI OLUN!**

**Uduldaqda zərərlidir**
**İşləyərkən əlcəklərdən, xüsusi geyimlərdən və göz qoruyucu vasitələrdən istifadə edin.**
**İş bitdikdən sonra əllərinizi və üzünüzü yaxşıca yuyun.**
**DƏRİYƏ TƏMAS OLDUĞU HALDA, bol su ilə yuyunmalıdır, əgər qıcıqlanma davam edərsə, həkimə müraciət etmək lazımdır.**
**GÖZLƏRƏ TƏMAS OLDUĞU HALDA gözlərinizi bir neçə dəqiqə ehtiyatla su ilə yuyun. Kontakt linzalardan istifadə edirsinizsə və bunu edə bilirsinizsə onları çıxarıb gözlərinizi yaxalamağa davam edin. Göz qıcıqlanması davam edərsə, tibbi yardım üçün həkimə müraciət edin.**
**UŞAQLARDAN UZAQ SAXLANILMALIDIR!**

## Tərkibi

STP polimer

## Daşınma və saxlama şəraitləri

Mexaniki zədələnmədən qorunmasını təmin edən qapalı nəqliyyat vasitələrində daşınmalıdır. Xarici maddələrin və atmosfer yağıntıların yapışdırıcıya düşməsini istisna edən şəraitdə istehsalçının qapalı qablaşdırmasında anbarda saxlanılma şəraitində saxlanılmalıdır. +5°C-dən +25°C-yə qədər temperaturda daşınmalı və saxlanılmalıdır.
İstehsalçının qablaşdırmasında saxlama müddəti - istehsal tarixindən 12 aydır.

### İstehsalçı Zəmanəti

İstehsalçı, istehlakçı tərəfindən daşınma və saxlama şərtlərinə, habelə bu təlimatın göstərişlərinə əməl edildiyi halda montaj yapışqanının istehsalçı spesifikasiyasına uyğunluğuna zəmanət verir. İstehsalçı materialla işləmə texnologiyasına riayət edilməməsinə, habelə onun hazırki təlimatlarda nəzərdə tutulmayan məqsədlər və şərtlərə uyğun istifadəsinə görə məsuliyyət daşımır.

GOST R 8.579-2002-yə uyğun olaraq xalis çəkidən kənarlaşma.

### Materialın sərfiyyatı.

Diametri 5 mm olan 11 p.m zolaq üçün 280 ml


**MÜŞTƏRİ DƏSTƏK XİDMƏTİ**

8 (800) 555 - 71 - 67

www.plitonit.ru

e-poçt ünvanı: info@mc-bauchemie.ru